# M.T. Sidqinin hekayələrində uşaqların ailədə tərbiyəsi məsələləri

**Səbinə Namiq qızı Cəfərova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Bakı Slavyan Universiteti*
**E-mail:** sabina_16_86@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. Z.S. Məcidova,
p.ü.f.d. N.R. Əliyeva

**Açar sözlər:** tərbiyə, ailə, mənəviyyat, proses, mövhumat, övlad
**Ключевые слова:** воспитание, семья, духовность, процесс, суеверия, ребенок
**Key words:** upbringing, family, spirituality, process, superstition, child

Ailə sosial institut olaraq maddi, mənəvi dəyərləri tənzimlənmiş, eyni zamanda əsrlər boyu ailə münasibətlərinin qorunub saxlanmasını özündə ehtiva edən bir qurumdur. XIX əsrin sonu XX əsrin tarixi şəraitinə nəzər yetirdikdə Azərbaycanda ailə tərbiyəsi məsələləri daim diqqət mərkəzində olmuşdur. Ailənin inkişaf və formalaşması hər bir xalqın tarixi təkamülündə mühüm yer tutduğu kimi xalqların mənəviyyatının və mədəniyyətinin inkişafında da müstəsna əhəmiyyət kəsb edir.

Bu gün yaşlı nəslin varisliyinin, təcrübəsinin düzgün və doğru yollarla ötürülməsi, eyni zamanda mental dəyərlərimizin qorunub, saxlanmasında ailələrin böyük rolu vardır. Belə ki, ailələr müxtəlif üsul və vasitələrlə uşaqların əxlaqını, mənəviyyatını, onların zövqlərini, sağlamlığını bir sözlə hərtərəfli şəxsiyyət kimi formalaşmasını qarşıya məqsəd qoyaraq bu istiqamətdə mühüm addımlar atır.

XIX əsrin sonu XX əsrin əvvəllərində də ailə tərbiyəsi məsələləri Azərbaycanlıların sosial-mədəni inkişafının və mədəni həyat tərzini əks etdirirdi. Bəzi Azərbaycan ailələrində bu münasibətlərin düzgün qurulmaması, ailələrin çoxunda mehribançılılq və ünsiyyətin olmaması, qadınların hüquqsuzluğu, savadsızlığı, valideynlərin övladları düzgün tərbiyə etməmələri mütərəqqi pedaqoqların diqqət mərkəzində idi.

Azərbaycanın maarifçi pedaqoqlarının əsərlərində, məqalə və felyetonlarında geniş yer verilən məsələlərdən biri də ailə, ailədə uşaq tərbiyəsi, qadına hörmət, valideyn-övlad münasibətləri idi. Həmin əsərləri, məqalələri diqqətlə təhlil edərkən görmək olur ki, milli təfəkkürün, mədəniyyətin və mütərəqqi ideyaların yayılmasında mühüm xidmətləri olan bu görkəmli nümayəndələr yalnız savadın, elmin yayılması, xeyriyyəçilik məsələləri deyil, eyni zamanda ailədə tərbiyə, tərəqqi, cəhalət və mövhumatın aradan qaldırılması, ailə bağlarının və təməllərinin möhkəmləndirilməsi, habelə cəmiyyətdə ailə institutunun qüvvətlənməsi, ailələrdə şəxsiyyətin hərtərəfli inkişafı, tərbiyəsi məsələlərini qarşıya zəruri məqsəd kimi qoymuş və bu istiqamətdə mühüm addımlar atmışlar.

Mütərəqqi ziyalılar o dövrdəki tarixi şəraitin Azərbaycan ailələrinə də təsirsiz ötüşmədiyini vurğulayır və bir çox ailələrdə mehribançılıq, ünsiyyət və xoş rəftarın olmadığını, ailələrdə qadına, uşağa hörmət göstərilmədiyini, onlara insani münasibət bəslənmədiyini, bəzən bu ailələrin pul, var-dövlət, mənsəb münasibətləri üzərində qurulduğunu qeyd edirdilər. Bundan başqa onların əsas amallarından biri ailədə qadınların təhsili məsələləri, təlim-tərbiyə daha da diqqət ayırmaq və bu istiqamətdə mühüm addımların atılması idi.

XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb yaratmış görkəmli pedaqoqlardan biri Mə-

həmməd Tağı Səfərov (Sidqi) (1854-1903) olmuşdur. M.T. Sidqinin əsərlərində ailəyə, övlad tərbiyəsinə xüsusi yer ayırırdı. O, hesab edirdi ki, insan şəxsiyyətinin hərtərəfli formalaşmasına təsir göstərən mühüm amillərdən biri tərbiyədir və tərbiyənin rolunu yüksək qiymətləndirərək onun uşaqların inkişafında vacib rol oynadığını dönə-dönə qeyd etmişdir.

M.T. Sidqi özünün "Nəsihətnamə"sində qeyd edirdi ki, övladlar kiçiklikdən ata-ananın nəsihətlərinə qulaq asmalı, onları dinləməlidirlər, əgər övlad valideynini zamanında dinləməsə sonunda peşman olacaq, həyatı boyu çətinliklərlə üzləşəcəkdir. Bu səbəbdən də o, valideynlərə övladlarına kiçiklikdən düzgün tərbiyə etməyə, elmə savada cəlb etməyə, eyni zamanda onların zamanlarını boş işlərə yönəltməyi vacib bilir, bununla yanaşı ana və ataların ailədə uşaqları ərköyünlükdən, əzizləmədən uşaq saxlamağı və bu işin uşağın tərbiyəsində nöqsana səbəb olacağını vurğulayırdı. Sidqiyə görə ailədə övladlar öz valideynlərinə hörmət və ehtiramla yanaşmalı, öz övladlıq borcunu şərəflə yerinə yetirməlidir. Sidqiyə görə, valideynlər övladlarını dünyaya gəlməsinə vəsilə olan, onları zəhmətlə boya-başa çatdıran insanlardır. Bu səbəbdən də ilk növbədə onlara hörmət və iffət etmək uşağın övladlıq borcudur. Bundan əlavə Sidqi söyləyirdi ki, əgər övladların öz valideynlərinə məhəbbəti, sevgisi yoxdursa bu uşaqlar gələcəkdə ən əxlaqsız insanlar olaraq yetişəcək və onlar üçün müqəddəs heç nə olmayacaqdır. Ailədə düzgün tərbiyə görmüş uşaq hər zaman öz valideynlərinə, böyüklərinə, müəllimlərinə və ətrafındakı insanlara hörmət və qayğı ilə yanaşacaq, onlara mərhəmət göstərəcək, qayğılarına qalacaqlar.

Sidqi ailədə uşaqların düzgün tərbiyəsi onların cəmiyyətdəki davranışına, özünütəsdiqə, dostları ilə münasibətə birbaşa sirayət edir və bu əxlaqi keyfiyyətlər hələ erkən yaşlarında ailə üzvləri tərəfindən aşılanır. Məhz bu səbəbdən də bir pedaqoq və ailə başçısı olaraq Sidqi uşaqları kiçiklikdən hərtərəfli tərbiyə etməyi məsləhət görür və bu tərbiyədə ən başlıca valideynin rolunu qiymətləndirirdi. O, uşaqları "yaş ağac"a bənzədərək onların tərbiyəsindəki qüsurları lap erkən yaşdan aradan götürməyi məsləhət görürdü. Sidqiyə görə uşaq yaxşı və ya pisi, ağ və ya qaranı anladıqları zaman onların tərbiyəsinə həssas yanaşıb, daha da qayğı yetirmək lazımdır. Bu zaman onların qəlbində dürüstlük, saflıq kimi əxlaqı toxumlar səpiləcək və ədəbli, vicdanlı insan kimi yetişə biləcəklər. Görkəmli pedaqoqun valideynlərə ən başlıca məsləhəti ondan ibarət idi ki, uşaqları heç bir vəchlə nəzarətsiz qoymasınlar. Əgər ki, uşaq tərbiyəsi zamanı övlad valideyn nəzarətindən çıxarsa bu zaman həmin uşaq əxlaqdan, ədəbdən uzaqlaşacaq və pis əməllərə qurşanacaq, xasiyyəti korlanacaqdır. Görkəmli pedaqoq tərbiyəsində bu cür nöqsanlı uşaqları təsvir edib söyləyirdi ki, əxlaqı və ədəbi pozulmuş uşaqlarda heç zaman ar və namus olmaz, onlar valideynlərinin hörmətini saxlamaz, ağsaqqal tanımaz, nə ustad qədri bilər, nə müəllim. Bu cür uşaqlar ancaq avara işlərlə məşğul olar, boş-bekar gəzib həyatlarını cəhalət və qəflət içində keçirər. O, qeyd edirdi ki, ailədə ailə üzvləri arasında səmimiyyət, isti münasibət, ər arvad arasında sevgi olmalıdır. Bu mehriban davranışlar uşaqların tərbiyəsinə birbaşa sirayət edir, onların xarakterinin formalaşmasında özünü göstərir. Bundan əlavə Sidqiyə görə ailənin möhkəm təməllər üzərində qurulmasının başlıca şərti ailədaxili münasibətlər üzərində qurulması idi. Qarşılıqlı sevgi-məhəbbətin, gözəl ünsiyyət və rəftarın, dava-dalaşın olmadığı ailələrdə uşaqlar da xoşbəxt və sağlam zəka ilə böyüyəcək və gələcəkdə cəmiyyət üçün yararlı şəxsiyyətə çevriləcəklər.

Məmməd Tağı Sidqi ailədə uşaq tərbiyəsi, onların düzgün üsullarla tərbiyə olunması məsələlərinə öz əsərlərində geniş yer vermişdir. Qeyd etmək lazımdır ki, M.T. Sidqinin uşaqların tərbiyə məsələləri, ailədə uşaqlara verilən düzgün tərbiyə üsulları və vasitələri haqqında məsələlərə onun "Əxlaq nümunəsi" və "Qızlara hədiyyə" dərsliklərində rast gəlmək olur. Sidqi hekayələrində uşaqları milli dəyərlər ruhunda tərbiyə etməyi, əxlaqi məsələləri ön mövqeyə

çəkərək onları hərtərəfli yetişdirməyi məsləhət görürdü. O qeyd edirdi ki, həbsxanaları söküb onların yerində “övlada məhəbbət” adlı bir nişangahlar inşa etmək gərəkdir.

M.T. Sidqinin əsərlərini təhlil edərkən tədqiq edilən dövr üçün xarakterik olan tərbiyə üsullarını aydın görmək olur. Məsələn, onun “Tərbiyənin təfavütü” adlı hekayəsində iki bacının hər birinin öz oğlanlarına verdikləri tərbiyənin fərqliliyi qeyd olunur. Bacıların övladlarına verdiyi fərqli tərbiyə onların uşaqlarının hərəktlərində, əxlaqi keyfiyyətlərində və mənəvi dünyalarında açıq-aydın görmək mümkündür. Birinci bacının övladına verdiyi tərbiyədə heç bir qüsur görməyən oxucu, ananın övladına verdiyi sevgi, məhəbbət, davranışındakı nəzakətli rəftar uşağın tərbiyə ağuşunda böyüməsinə şərait yaratdığına və yeri gəldiyində övladını tənqid etməkdən, cəzalandırmaqdan qaçmadığını aydınca görə bilir. Uşaq ananın verdiyi nəsihətlərə, öyüdlərə əməl edir buda onun çalışqan, zəhmətkeş bir insan kimi yetişməsinə səbəb olur. Aldığı bilik, savad və təhsil sayəsində Vətəninə, millətinə, cəmiyyətə layiqli insan kimi yetişir.

Lakin hekayənin ikinci qəhrəmanı, digər bacının övladına verdiyi tərbiyədəki qüsurları görməmək mümkün deyil. Ana övladının hər ərköyünlüyünə göz yumub, onun nazı ilə oynayır, lazımi və lazımsız istəklərini həyata keçirir, bütün bunlar da uşağın tərbiyəsinə mənfi təsir göstərir. Ananın tərbiyə vermək bacarığı aşağı olduğundan övladının da tərbiyəsi zərər görür.

Bu kiçik ibrətamiz hekayədən aydın olur ki, anaların şəxsi nümunəsi övladların tərbiyəsinə birbaşa təsir göstərir. Mədəni dəyərlərdən məhrum olan ananın şəxsi nümunəsi övladının da əxlaqında, tərbiyəsində mənfi rol oynayır.

M.T. Sidqi uşaqların tərbiyəsində anaların böyük rol oynadığını vurğulayırdı. O, “Bala tərbiyəti” adlı hekayəsində qeyd edirdi ki, “*anaların rəftarı və kirdarı, hal, hərəkəti balaların qəlbinin aynasına əsk salır*” (4, s. 109). Hekayəni təhlil edərkən nəzərə çarpır ki, M.T. Sidqi uşaqların inkişafında, əxlaqlarının düzgün formalaşmasında elmə, savada yiyələnmiş anaların mühüm rol oynadığını vurğulayır və ananın övladının təlim-tərbiyəsini, elmini öz qiymətli libaslarından üstün tutması, ən dəyərli daş-qaşın onların tərbiyəsi, savadı olduğunu xüsusi həssaslıqla qeyd edir

Sidqinin ailə tərbiyəsi ilə bağlı digər bir hekayəsinə nəzər yetirək. “Sitarə ilə xalası” hekayəsində bir qızcığazın anasına olan sevgisindən, məhəbbətindən söhbət açılır. Anasını bir gün görməsə darıxacağını, onu görməsə üzüləcəyini söyləyən Sitarə, xalasına anasını canı qədər sevdiyini qürur, vüqar hissi ilə vurğulayır. Bu məqamda təbii ki, Sitarənin xalası anaların necə böyük, əvəzedilməz varlıq olduğunu, övladlarının qeydinə qaldığını, onları dərin məhəbbətlə sevdiyini, qayğısını çəkdiyini, xəstələndikləri zaman səbirlə, nəvazişlə yanaşdıqlarını vurğulayır, habelə uşaqları anadan olduqları ilk gündən övladlarına itaətlə xidmət etdiklərini, ədəbərkanla, namusla böyütdüklərini qeyd edir. Hekayədə valideynin şəxsi nümunəsinin qüvvətli təsir gücünə malik olduğunu görmək mümkündür. Sidqi bu cür ibrətamiz hekayələrlə nəinki anaların şəxsi nümunəsini, eyni zamanda ataların da nümunəsini övladların tərbiyəsində təsiredici qüvvəyə malik olduğunu vurğulamışdır. Sidqi valideyn nümunəsinin uşaqların gələcək taleyində, ailə həyatında habelə onların xarakterinin düzgün formalaşmasında mühüm əhəmiyyət kəsb etdiyini qeyd edirdi.

M.T. Sidqinin “Ədəbli və tərbiyəli uşaq” və “Ədəbsiz və tərbiyəsiz uşaq” hekayələrini təhlil edək. Adlarından da göründüyü kimi hekayələr bir-birinin əksidir. Burada görkəmli pedaqoq tərbiyəli və tərbiyəsiz uşaqların əxlaqını, əqidəsini üzləşdirir, uşaqların tərbiyəsində istifadə edilən tələb metodunun hansı hallarda düzgün istifadə edildiyini, hansı hallarda isə yanlışlığa yol verildiyini, bundan əlavə uşaqlarda düzgün davranış təcrübəsinin formalaşdırılmasının yollarını izah etməyə çalışmışdır. Hekayədə ictimai rəy metoduna söykənərək uşaqların

tərbiyəsindəki doğru və əyriliklərin insanlar tərəfindən necə qarşılanacağını, etdikləri hərəkətin xalq içində etibar qazanıb-qazanmayacağını həssaslıqla göstərmişdir. Sidqi söyləyirdi ki, hansı valideyn biədəb övladdan razı olar? Əgər valideyn övladının tərbiyəsinə görə utanmaq istəmirsə, onları zamanında əxlaqi keyfiyyətlərlə, düzgün davranış normalarına alışdırmaqla tərbiyə etməlidirlər.

Beləliklə, məqalədən aydın olur ki, M.T. Sidqi ailədə uşaqların hərtərəfli inkişafına böyük önəm verir, bu işdə valideynlərin rolunu yüksək qiymətləndirirdi. Sidiqnin əsərlərini təhlil etdikdə görmək olur ki, görkəmli pedaqoq ailədə uşaqların əxlaqi tərbiyəsinin doğru formalaşdırılmasının vacibliyini vurğulamışdır.

**Məqalənin aktuallığı.** Tərbiyə yaşlı nəslin əldə etdiyi bilik, bacarıq və vərdişlərin gələcək nəsillərə ötürülməsi və aşılanmasıdır, dinamik proses və mürəkkəb sistemdir. Bu baxımdan ailədə uşaqların tərbiyəsi, onların inkişafı həmişə ən mühüm məsələlərdən biri hesab olunur və Azərbaycan xalqının tarixi keçmişinin öyrənilməsi, ailə münasibətlərinin öyrənilməsi bu gün də aktualdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik onunla bağlıdır ki, məqalədə M.T. Sidqinin ailədə uşaqların hərtərəfli inkişafına böyük önəm verdiyi və bu işdə valideynlərin rolunu yüksək qiymətləndirdiyi konkret nümunələr əsasında öz təsdiqini tapır. Eyni zamanda, ailədə uşaqların əxlaqi tərbiyəsinin düzgün formalaşmasının vacibliyi görkəmli müəllimin əsərlərinin təhlili ilə bir daha oxucuların diqqətinə çatdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı, 2005, 580 s.

2.Həşimov Ə.Ş. Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı: Ünsiyyət, 2000, 272 s.

3. Qeybullayev Q.Ə. Azərbaycanda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri) – tarixi etnoqrafik tədqiqat işi (II hissə). Bakı: Elm, 1994. 440 s.

4. Sidqi M.T. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, 277 s.

**С. Н. Джафарова**

## Вопросы семейного воспитания детей в рассказах М.Т. Сидги

## Резюме

В статье рассматриваются вопросы воспитания детей в семье в конце XIX - начале XX веков, значение воспитательного процесса. Воспитание - это передача и привитие знаний, навыков и привычек, приобретенных старшим поколением, будущим поколениям, это динамичный процесс и сложная система. С этой точки зрения воспитание детей в семье, их развитие всегда считается одним из важнейших вопросов, и изучение исторического прошлого азербайджанского народа, изучение семейных отношений актуально и сегодня. Кроме того, в статье говорится, что М.Т.Сидги придает большое значение всестороннему развитию детей в семье и высоко оценивает роль родителей в этой работе. Анализ произведений Сидги показывает, что выдающийся педагог подчеркивал важность правильного формирования нравственного воспитания детей в семье.

**S.N.Jafarova**

## Problems of famıly upbringing of chıldren ın storıes M.T.Sidgi


### Summary

The article examines the issues of upbringing children in a family in the late 19th - early 20th centuries, the importance of the educational process. Upbringing is the transfer and inculcation of knowledge, skills and habits acquired by the older generation to future generations; it is a dynamic process and a complex system. From this point of view, the upbringing of children in the family, their development is always considered one of the most important issues, and the study of the historical past of the Azerbaijani people, the study of family relations is relevant today. In addition, the article states that M.T.Sidgi attaches great importance to the comprehensive development of children in the family and highly appreciates the role of parents in this work. An analysis of Sidgi's works shows that the outstanding teacher emphasized the importance of the correct formation of the moral education of children in the family.


**Redaksiyaya daxil olub:** 04.11.2021